# QANUNLAR

- Azərbaycan Respublikasının «Azadlıq uğrunda mübariz» fəxri adının müəyyən edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (13 yanvar, 1992) ............................................2

- Şəhidlər gününün elan olunması haqqında Azərbaycan Respublikasının Qanunu (18 yanvar, 1992)........................................................................................................................4

## Azərbaycan Respublikasının «Azadlıq uğrunda mübariz» fəxri adının müəyyən edilməsi haqqında Azərbaycan Respublikasının qanunu (13 yanvar 1992)

Azərbaycan xalqı imperiya əsarətindən xilas olmaq və özünün dövlət müstəqilliyini bərpa etmək uğrunda ardıcıl mübarizə aparmışdır. 1988-ci ildən başlayaraq bu mübarizə Azərbaycan Respublikasında ümumxalq miqyası almışdır.

Azərbaycan Respublikasının imperiya buxovlarından qurtulmaq cəhdlərindən təşvişə düşən keçmiş SSR İttifaqının mərkəzi orqanları başlanmış ümumxalq azadlıq hərəkatını bu dəfə də yatırmaq məqsədilə 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinə və bir sıra rayonlarına qanunsuz olaraq qoşun yeridərək dinc əhalini gülləbaran edib yüzlərlə günahsız adamı qətlə yetirmiş və yaralamışlar. Bu qırğın zamanı bir çox vətəndaşlar Azərbaycan Respublikasının müstəqilliyi naminə yüksək vətəndaşlıq nümunəsi, mərdlik və hünər göstərmişlər.

Azərbaycan Respublikasının müstəqilliyi uğrunda mübarizədə həlak olanların və yaralananların adlarını əbədiləşdirməyin zəruriliyini nəzərə alaraq Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası **qərara alır:**

1. Azərbaycan Respublikasının «Azadlıq uğrunda mübariz» fəxri adı müəyyən edilsin.

2. Azərbaycan Respublikasının «Azadlıq uğrunda mübariz» fəxri adı 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinə və bir sıra rayonlarına keçmiş SSR İttifaqı Silahlı Qüvvələrinin basqını zamanı yüksək vətəndaşlıq nümunəsi, mərdlik və hünər göstərmiş həlak olan və yaralanan vətəndaşlara verilir.

3. Azərbaycan Respublikasının «Azadlıq uğrunda mübariz» fəxri adı Azərbaycan Respublikası prezidentinin fərmanı ilə verilir.

Azərbaycan Respublikasının «Azadlıq uğrunda mübariz» fəxri adı verilən vətəndaşlara Azərbaycan Respublikası prezidentinin fərmanı və fəxri adın vəsiqəsi təqdim olunur.

4. Azərbaycan Respublikasının «Azadlıq uğrunda mübariz» fəxri adının verilməsi haqqında vəsatət «Azərbaycan SSR fəxri adlarının müəyyən edilməsi və Azərbaycan SSR dövlət təltifləri haqqında əsasnamənin təsdiq olunması barəsində» Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1983-cü il 26 avqust tarixli fərmanında və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1983-cü il 11 noyabr tarixli qərarı ilə təsdiq olunmuş «Azərbaycan SSR dövlət təltifləri ilə təltif olunmağa təqdimetmə və təltifləri təqdimetmə qaydası haqqında» təlimatda müəyyən edilmişi qaydada Azərbaycan Respublikası Ali Sovetinin 1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə qoşunların yeridilməsi ilə əlaqədar faciəli hadisələrin təfsilatının və səbəblərinin təhqiqi üzrə istintaq komissiyası, «20 Yanvar» cəmiyyəti, digər ictimai təşkilatlar və təqdim edilənin işlədiyi əmək kollektivi tərəfindən verilə bilər.

5. Təltifləri təqdimetmə qaydası Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1983-cü il 11 noyabr tarixli qərarı ilə təsdiq olunmuş «Azərbaycan SSR dövlət təltifləri ilə təltif olunmağa təqdimetmə və təltifləri təqdimetmə qaydası haqqında» təlimatla nizama salınır.

6. Bu qanun qəbul edildiyi andan qüvvəyə minir.

***Bakı şəhəri, 13 yanvar 1992-ci il.***

## Şəhidlər gününün elan olunması haqqında
## Azərbaycan Respublikasının qanunu
## (18 yanvar 1992)

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası **qərara alır:**

1. 20 yanvar Şəhidlər günü elan olunsun.

2. Azərbaycan SSR-in 1971-ci il 10 dekabr tarixli qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsinə aşağıdakı məzmunda 66-1-ci maddə əlavə edilsin:

«Maddə 66-1. Şəhidlər günü

Yanvarın 20-də — Şəhidlər günü müəssisələrdə, idarələrdə, təşkilatlarda iş görülmür.

Həmin gün yol verilən işlər, habelə işin haqqı bu məcəllənin 66-cı maddəsinin ikinci və üçüncü hissələrinə müvafiq surətdə müəyyən edilir».

3. Bu qanun qəbul olunduğu andan qüvvəyə minir.

***Bakı şəhəri, 18 yanvar 1992-ci il.***